Azərbaycan Respublikasının
Mədəniyyət Nazirliyi

M.F.Axundov ad. Azərbaycan
Dövlət Kitabxanası



HÜSEYN CAVİD - 120

Bakı - 2003

2003
1272

AZƏRBAPYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ M.F.AXUNDOV
adına AZƏRBAYCAN DÖVLƏT
KİTABXANASI

U15
C27

HÜSEYN CAVİDİN ANADAN OLMASININ 120 İLLİYİ VƏ KİTABXANALARIN VƏZİFƏLƏRİ

74660

Metodik tövsiyələr

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI - 2003

73201

Ш5(2=А3)р + Ч73(2А)

Buraxılışına məshul
və ixtisas redaktoru: K.M.Tahirov

Tərtib edəni: M.Məmmədov

Redaktoru: Y.Garalıyev

Kompüter dizaynı
və yığımı: G.Baxşıyeva
D.Hacıyeva

Hüseyn Cavidin anadan olmasının 120 illiyi və kitabxanaların vəzifələri: Metodik tövsiyələr/ Tərt.ed. M.Məmmədov; Red.: Y.Qaralıyev.- B.: M.F.Axundov ad. Azərb. Dövl. Kitabxanası, 2003.- 27 s.
Biblioqr.: S. 18- 19.
Cilddə: Hüseyn Cavid - 120.

Yazılmağa verilib: 12. 05. 03
Çapa imzalanıb: 31. 07. 03
Tirajı 150 nüsxə.

© M.F. Axundov ad. Dövlət Kitabxanası, 2003

HÜSEYN CAVİDİN ANADAN OLMASININ 120 İLLİYİ

Mənim tanrım gözəllikdir, sevgidir.

Hüseyn Cavid

ÖN SÖZ

(Cavid taleyi)

Klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən, Azərbaycan mütərəqqi romantizminin banilərindən sayılan, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifi kimi tanınan Hüseyn Cavid ədəbiyyatımızın inkişafı tarixində misilsiz yaradıcılıq nümunələri ilə zəngin ədəbi irs qoyub getmiş gözəl qələm sahibidir.

Bu gün belə bir obyektiv aynada, tarixi və elmi həqiqət güzgüsündə yenidən görünməyə Cavid qədər ehtiyacı olan ikinci böyük ədəbi simamız bəlkə də yoxdur.

Böyük mütəfəkkir, şair-filosof Hüseyn Cavid Azərbaycan ədəbiyyatında hər cür təzyiq və təhqirlərə məruz qalmasına baxmayaraq, dəyişməyən, özünə, ideyalarına sadiq qalan şəxsiyyət - vətəndaş olmuşdur. Cavid bir əsrin, dövrün oxucusuna gərək olan yazıçı-şair deyil, dünya öz duruşunda durduqca, içimizdə «İblis» qəhqəhəsi, «Afət» iniltisi, «Peyğəmbər» ilahiliyi qaldıqca yaşayacaqdır.

1937-ci ilin qaranlıq bir gecəsinin zülmətinə bükülüb zindanlara atılan şair az sonra əli-qolu bağlı Sibirə göndərilib. Beş il Sibir şaxtasına, Sibir zülmlərinə dözüb, sonra qərib eldə dünyasını dəyişib.

Böyük ədəbi irs yiyəsi, bəşəri fələsəfi düşüncəli bir şairin ruhu o an Azərbaycana dönüb, cəsədi isə səssiz-səmirsiz, yiyəsiz-sahibsiz, qibləsiz bir məzarda - bumbuz Sibir torpağında basdırılıb. Nə yaxşı ki, sözün həqiqi mənasında insaflı insanlar olub - o qəbrə, yiyəsiz qəbrlərə nömrə qoyub dəftərlərə yazıblar. Məhz buna görə də Hüseyn Cavidin qəbri tapıldı. Nəhayət, qəbri Azərbaycana gətirildi. Hüseyn Cavid ömürlük uyuyan bir türbədə - ana torpağında, doğulduğu Naxçıvanda ailəsinin - Müşginazının, Ərtoğrulunun yanında dəfn olundu. Budur Cavid taleyi. Dünya üzərindən ruhu ilə bizə, həyatımıza, müstəqil Azərbaycan xalqının çəkdiyi əzab və iztirablara boylanan, həmin iztirabları öz dərdinə qatan və insan taleyini düşünərək dövrlər, zamanlar sınağından keçən Cavid taleyi nəhayət, «ilahi» səviyyəsinə qədər ucaldı, xalqımızın tarixi yaddaşında əbədiləşdi.

CAVİD HƏYATI QƏLƏM DÜNYASINDA

XX əsrin əvvəllərində ədəbiyyatda sosializm ideyasına uymuş fikirlərin hökm sürdüyü bir vaxtda H.Cavid ilk qələm təcrübəsindən, son misrasına qədər içindəki saf duyğuya sadiq qalan, «əmin ol, nerdə olmuşsa hakim, həqiqi eşqi məhv etmiş məlalım», - deyən şair, öz tanrısını sevgi ülviliyi ilə birləşdirir, məyus qəlbin fəryadını bütün dünyaya bərabər tuturdu.

Hüseyn Cavid bədii yaradıcılığa (özünün qələm sənətinə) şerlə başlamışdır. Bədii sənət məbədinə «Salik» təxəllüsü ilə imzasını atan şairin ilk şeri 1906-cı ilin yanvarında «İrşad» qəzetində çap olunmuşdur. İlk şerində Vətənə xidmət ehtirasının yığcamlığı bu cür ifadə olunur:

Millət qəmi ilə az qalır axır cunun ola,
Həm də odur ki, ney tək ucalda sədasını.

Məhz Cavidin bir şair və mütəfəkkir kimi bütün sonrakı yaradıcılığı bu ali məqsədə sədaqətin əməli ifadəsi olmuşdur. Cavid yaradıcılığına nəzər salarkən bir dünya ətrafında cövlan edib durmalı olacağıq, bu da insan qəlbində gizlənən, gözə görünməyən dünyadır. İnsanın yaşadığı dünyanın faciəsi, ağrısı Cavid yaradıcılığında özünəməxsus bir dərinlik və iztirabla əks olunmuşdur.

Hey fələk, keçdi zaman dalğa kibi,
Öylə bir dalğa ki, qorxunc, əsəbi.

Hər dəfə bu sətirləri oxuyanda bizə elə gəlir ki, bu misralar canlı Cavidin yox, sürülmüş ömrün, yaşanmış həyatın, bir dalğa kimi kükrəyəndən sonra sakitləşmiş zamanın haqq dünyasına qürub olmuş, bizləri kənardan seyr edən Cavid ruhunun müşahidəsidir.

Cavidin yaradıcılıq idealı konkret milli məzmunu ilə yanaşı, həm də ümümbəşəri mahiyyət daşımasındadır. O, zamanla bağlı olaraq, daim ziddiyyətli inkişafda, saflaşdırmaq, aydınlaşmaq, əsrin qabaqcıl ideyalarına yaxınlaşmaq prosesində olmuşdur.

Azərbaycanın şimal bölgəsində xalqları, millətləri bir-birindən ayrı salan köhnə etiqadlara qarşı üsyan (Şeyx Sənan), qadın-ana hüququnun müdafiəsi («Ana», «Maral», «Uçurum»), əzilən, istismar olunan insan hüquqlarına qarşı çağırış («Şeyda», «Haqqını sən mübarizə yolu ilə ala bilərsən» poeması və bir çox lirik şerlər), xalqın maariflənməsi, müasirləşmənin qarşısını alan qara qüvvələrə etiraz Cavidin əsas yaradıcılıq idealı olmuşdur.

Cavid şübhəsiz, hər şeydən əvvəl, fəlsəfi poeziya və məhəbbət şairidir, klassik Azərbaycan lirikasının Şərqdəki nüfuzunu və vüsətini XX əsrdə qorumuş və ucaltmış bir lirikdir.

Cavid sənəti bədii forma, janr cəhətdən çox zəngin olmuşdur. O, yüksək sənətkarlıqla yazılmış lirik şerlər, poemalarla yanaşı, Azərbaycan səhnəsinə faciə və

dramlardan ibarət 15 orijinal əsər vermişdir. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların yaradıcısı Cavid olmuşdur. Cavid teatrının coğrafiyası da çox genişdir. Belə ki, dramaturqun pyesləri yalnız Azərbaycanda deyil, onun hüdudlarından uzaqlarda belə, teatrların səhnələrində qoyulmuşdur. Onun qələmindən çıxan «Ana», «Maral», «Şeyx Sənan», «Uçurum» əsərləri ilə bizim milli səhnədə tamamilə yeni üslubun - mənzum və romantik teatrın təməl daşları qoyulmuşdur.

Cavidin əsərlərində oxucu - tamaşaçı yalnız Azərbaycan həyatı ilə deyil, başqa xalqların həyatı, adət və ənənələri ilə də tanış ola bilir. Bütün romantiklərdə olduğu kimi, mövzu Caviddə də yüksək ümumbəşəri idealları əks etdirmək üçün bir vasitədir.

Hüseyn Cavid böyük şəxsiyyətlərin həyatını təsvir edəndə də, tarixi keçmişin hadisələrini canlandıranda da, bir ailənin fəlakətini göstərəndə də, bir şəxsiyyətin sarsıntılarını üzə çıxaranda da insanın daxili mürəkkəbliyini ön plana çəkir və bütün bunları ictimai gerçəkliklə əlaqələndirir. Cavid üçün İnsan kimdir? Ya hər kəsə xain olan insan kimdir? İblis! ki, «bu insan məzhəbindən kimsə çıxmaz» kimsə qurtulmaz, çünki, «böyük başlar dumanlanmış, atəş püskürən hər an, dənizlər qan, buludlar qan, hava qan, hər yerdə qan» - Və «nə istər bir-birindən anlaşılmaz sayğısız insan?» (İblis) Cavid üçün insan budur! Müasir dövrün övladı həm zalım, həm də qan içində çırpınan varlıqdır. Cavid üçün insan həm özunu aldatmış zavallı, həm də bəşəriyyəti aldatmış biçarədir!

Cavid yaradıcılığına nəzər salarkən bir dünya ətrafında cövlan edib durmalı olacağıq, bu da insan qəlbində gizlənən dünyadır. Məhz insanın yaşadığı dünyanın faciəsi, ağrısı Cavid yaradıcılığında özünəməxsus fəlsəfi kamilliklə əks olunmuşdur. Məsələn, Cavidin «Səyavuş» əsərində Südabənin qəlbində iki hiss

yaşayır; sevgi - nifrət. Sevgisinə cavab almamış qadın, ağlı ilə nifrət edir, qəlbi ilə sevir.

Ümumiyyətlə, Cavidin qəhrəmanlarının heç biri layiq olduğu həyatı yaşamır, onların ömür yolu zülmətdən başlayıb, zülmətdə də bitir. Ədəbi tənqid Cavid qələmindən də yan keçmədi. Onun yaradıcılığı haqqında elə adamlar fikir söyləməyə cəhd göstərirdi ki, onlar nəinki sənətkarı başa düşmür, həm də zamanın ideoloji sxemindən çıxış edərək öz vəzifələrini hamı qarşısında eyni amansızlıqla irəli sürürdü. Məsələn:

«Hüseyn Cavid öz ədəbi icadı» ilə köhnə mövzular axtarır və öz yaradıcılığı üçün «İblis», «Peyğəmbər», «Şeyx Sənan», «Keçmiş günlər» kimi köhnə mövzular intixab edir (Kommunist 22.10.1924). Əsərlərinə verilən belə qiymətlərin psixoloji mühiti, əslində həmin illərin birtərəfli sənət mübahisələri idi. Cavidin faciəsi, belə demək mümkünsə, bunda idi. Lakin ədəbiyyat vəhşilər törədən inqilablar, müharibələr törədən inqilablar, müharibələr təbliğatı üçün deyil, əksinə insan qəlbində yuva salan kini, qorxunc fikirləri məhv edib əzmək üçündür. Bütün bunlara baxmayaraq, amansız rüzgar qarşısında əyilməyən, özünün insanlıq ləyaqətindən doğan arzuları ilə yaradılmış ölməz əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil edilmişdir. Çox mühüm fəlsəfi, idraki və tərbiyəvi əhəmiyyəti olan Cavidin bu qələm sənəti yaşayır, günü-gündən daha artıq qiymətləndirilir və öz təravətini itirmir.

FAKTLAR VƏ RƏQƏMLƏR

1882 Azərbaycan romantizminin ilk görkəmli nümayəndələrindən biri, şair - dramaturq Hüseyn Cavid oktyabrın 24-ü Naxçıvan şəhərində anadan olmuşdur.

1896 Hüseyn Cavid təhsilini davam etdirmək üçün görkəmlit maarifçi Məmməd Tağı Sidqinin «Məktəbi tərbiyə» adlanan təhsil müəssisəsinə daxil olmuşdur.

1899 Həmin təhsil müəssisəsini müvvəffəqiyyətlə bitirmişdir.

1905 H. Cavid ali təhsil almaq üçün Türkiyə Respublikasının İstambul şəhərinə gedir və həmin ildə o, darilfunun ədəbiyyat şöbəsinə daxil olur.

1906 Salik təxəllüsü ilə ədəbi prosesə imza atan sənətkırın ilk şeri «İrşad» qəzetində dərc olunur.

1909 H.Cavid təhsilini başa vurub vətəninə, Naxçıvana qayıdır.

1909-10 Bu illərdə o, «Ana» pyesini, «Məsud və Şəfiqə» əsərlərini yazır.

1911 H. Cavid işləmək üçün Tiflisə gedir.

1912 Həmn ilin axırlarında Gəncədə bir neçə müəllimlik etsə də, işdən çıxarılır və

dəmir yolunda mühasiblik etməyə məcbur olur.

1913 Bü ildə onun «Ana» pyesi işıq üzü görür.

1916 Hüseyn Cavidin «Şeyx Sənan» faciəsi «Açıq söz» qəzetinin səhifələrində çap edilməyə başlayır və fevralın 2-dək 25 nömrədə bütünlüklə çap olunur.

1919 Həmin ilin ortalarında H. Cavid həmişəlik Bakıya köçür.

1920 Dekabrın 21-də Azərbaycan Dram Teatrının pərdəsi «İblis» tamaşası ilə açıldı, Azərbaycan poetik teatrının özülü bu tamaşa ilə qoyuldu.

1920-25 Bu illərdə o, Azərbaycan Dövlət Darülununda müəllimlik etmişdir.

1923 H. Cavid «Peyğəmbər» əsərini yazır. Bu hadisə ədəbiyyat aləmində qızğın mübahisələrə, müəyyən mənada narazılığa səbəb olur.

1926 Bu ildən etibarən şair təqaüdə çıxır.

1926 Noyabrın 15-də teatr onun nəsrlə yazdığı «Topal Teymur» dramının ilk tmaşasını göstərdi.

1929 Üç illik fasilədən sonra «Knyaz» pyesi tamaşaya qoyuldu. Azərbaycan dramaturgiyasında ilk olaraq Cavid

«Knyaz» əsərində bolşevik Anton obrazını yaratmışdır.

1933 H. Cavid «Səyavuş» əsərini yazır və 1934-cü ilin oktyabrında İ.Hidayətzadənin rejissorluğu ilə tamaşaya qoyulr.

1935 «Xəyyam» pyesini yazır.

1936 «İblisin intiqamı» əsəri çapdan çıxır.

1939 H.Cavid «pantürkist», «panislamist» damğası ilə günahlandırılır və həbs edilir.

1941 Repressiya qurbanı sənətkar İrkutsk vilayətinin Şevçenko kəndində vəfat etmişdir.

1981 Naxçıvanda ev muzeyi yaradılmışdır.

1982 Oktyabrın 21-də cənazəsi Naxçıvana gətirilərək, ev muzeyinin yaxınlığında dəfn olunmuşdur.

1984 Dövlət səviyyəsində H.Cavidin 100 illik yubileyi geniş qeyd edilmişdir.

2002 Oktyabrın 25-də, 120 illik yubiley ərəfəsində şairin Bakıdakı ev muzeyi yeni binaya köçürülmüşdür.

H.Cavidə qarşı irəli sürülən əsassız ittihamlardan bəzi məqamlar faktların dili ilə

- İyun ayının 4-də Dövlət Təhlükəsizlik Komitəsinin 509 nömrəli axtarış aparmaq üçün verilən orderinə əsasən (həmin order 3 iyun 1937-ci ildə imzalanmışdır) Bakı şəhəri, Kommunist küçəsi ev 8-də yaşayan H.Cavidin mənzilində axtarış apardılar. Onun mənzilindən 115 ədəd türk, ərəb, fars və başqa dillərdə yazılmış kitablar, 1 zənbil əlyazmalar və başqa əşyalar götürülmüşdür.

- H.Cavid ilk dəfə 1937-ci ilin 5 iyununda Təhlükəsizlik Komitəsinin müstəntiqi Platonov tərəfindən dindirilmişdir.

- İkinci sorğu-sual 21 dekabr 1937-ci ildə aparıldı. Bu dindirilmə zamanı da, onun heç bir əksinqilabçı təşkilatın (millətçi) üzvü olmadığı sübut olundu.

- Dindirmə zamanı Cavidi başqa bir məsələdə - millətçilikdə də ittiham edirdilər. 22 mart 1938-ci ildə aparılmış dindirmə protokolundan:

Sual: İstintaqa məlumdur ki, sizin əsərləriniz pantürkizm və Türkiyə meyli ilə doludur.

Cavab: Mən etiraz edirəm, yazdığım öz əsərlərimdə Türkiyəyə meyl etməmişəm.

- Bütün dindirmələr və üzləşdirmələrdən sonra Cavid haqqında 8 mart 1939-cu ildə daha bir qərar qəbul edildi. Həmin qərara görə H.Cavid əlavə olaraq Cinayət Məcəlləsinin 68-ci maddəsi ilə günahlandırıldı.

- İstintaqı aparan müstəntiqlər 11 mart 1939-cu ildə təptib etdiyi «İttihamnamədə» yazırdılar ki, o özünü müqəssir saymır.

- H.Cavidə qarşı edilən işgəncələrə, əsassız ittihamlara və şahid ifadələrinə baxmayaraq, o, özünün müqəssir olduğunu boynuna almamışdır. İstintaqın 1937-ci ilin iyunundan 1939-cu ilin mart ayına qədər davam etməsinin əsas səbəbi də yazıçının ona qarşı irəli sürülən bütün ittihamları rədd etməsi idi.

- 1939-cu ilin 8 martında H.Cavidə son söz verildi. O, son sözə onu əlavə etdi ki, əksinqilabi təşkilatda olmadığı kimi, casusluq işi ilə də məşğul olmamışdır.

- 1939-cu il iyun ayının 9-da H.Cavidin 24938 nömrəli istintaq işinə baxıldı və o, antisovet təşkilatında və təbliğatında iştirakına görə, cəzasını islah əmək düşərgəsində çəkməklə, vaxtı 4 iyun 1937-ci ildən hesablanmaqla 8 il müddətinə azadlıqdan məhrum edildi.

ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNİN HÜSEYN CAVİD HAQQINDA FİKİRLƏRİ

«Hüseyn Cavid da represiya qurbanlarından biridir və özü də, ailəsi də çox məhrumiyyətlərə məruz qalmışdır. Ancaq, represiyaya təkcə ayrı-ayrı insalar deyil, təəssüflər olsun ki, bizim xalqımız da məruz qalmışdır.

Xalqımızın represiyaya məruz qalması 1920-ci illərdən başlayır, mərhələlərlə 1950-ci illərin sonlarına qədər davam etmişdir.

Amma bununla bərabər, tariximiz, mədəniyyətimiz də represiyaya məruz qalmışdır. Çünki Sovetlər İttifaqı dövründə çalışmışlar ki, bizim tariximizi də, keçmişimizi də, ənənələrimizi də yalnız kommunist ideologiyasına, sovet sosialist quruluşuna uyğunlaşdırsınlar. Bu bizim tariximizdir. Bunlardan nəticə çıxartmalıyıq ki, xalqımız daha heç vaxt belə hallarla rastlaşmasın. Xüsusən, ona görə ki, indi bizim xalqımız azad olubdur.

Xalqımız, xüsusən gənc nəsil tariximizi bilməli, görkəmli şəxsiyyətlərimizi yaxından tanımalıdır».

Heydər Əliyev

«Biz Hüseyn Cavid yaradıcılığından istifadə etmiş və edəcəyik. H.Cavidin yaradıcılığında biz şairlər üçün öyrənməli şeylər çoxdur».

Səməd Vurğun

«Cavidin yaradıcılıq aləmi zəngin olduğu qədər də mürəkkəbdir, təzadlıdır. Lakin bununla belə onun sənətkarlıq təkamülünü, yaradıcılığı boyunca izlədiyi fikirləri başa düşmək çətin deyil. Bunun üçün Cavidi, onun zəngin irsini diqqətlə, dərindən öyrənmək lazımdır.

Ən başlıcası, bu sənətkarı gərək hər kəs istədiyi kimi yozmasın».

Mehdi Məmmədov

«Hüseyn Cavid kimi nadir ədəbi bir simanı mədəniyyət tarixindən silib atmaq, ən azı ədəbsizlik və bəlkə də cinəyət olardı. Biz «Şeyx Sənan», «İblis», «Səyavuş», «Xəyyam» və s. əsərlərin müəllifini heç bir vaxt və heç bir vəchlə düşmənlərimizə verə bilmərik. Hüseyn Cavid Azərbaycan xalqının oğludur. Onun poetik yaradıcılığı Azərbaycan xalqının milli sərvətləri xəzinəsinə daxildir. Bizim borcumuz Hüseyn Cavid irsinin düzgün qiymətini verməkdən ibarətdir. Biz bu irsə ehtiyac və qayğı ilə yanaşmalıyıq».

Hüseyn Mehdi

«Cavid yaradıcılığı teatrla üzvü surətdə bağlıdır. Cavidin, şübhəsiz öz teatrı vardır. Cavidi teatırsız, teatrı Cavidsiz düşünmək olmaz».

M.Cəfər

«Cavid bir ədəbiyyat korifeyi, saf duyğulu bir insan olmaq etibarilə Yer- Allah ikiliyində birləşirdi».

Zümrüd Yağmur

«Cavidi ittiham edirdilər ki, o, Azərbaycan mövzusunda az əsər yazır. Onu unudurlar ki, Cavid Azərbaycan sənətkarı olmaqla bərabər, böyük bir regionun - Yaxın və Orta Şərqin təmsilçisi idi. Bu xalqların tarixini, psixologiyasını, ruhunu, fəlsəfəsini ifadə edirdi. Və bu da Azərbaycan ədəbiyyatının mühüm tendensiyalarından, mühüm təmayüllərindən biridir».

Rəfael Hüseynov

«H.Cavidin ən güclü faciələrindən biri 1935-ci ildə dram əsərlərinin müsabiqəsində mükafata layiq görülmüş

«Xəyyam» pyesidir. Dramaturji sanballığa, bədii siqlətinə, hadisələrin dramatik inkişafına, xarakterlərin güclülüyünə, fəlsəfm kamilliyinə baxmayaraq, «Xəyyam» əsəri 1970-ci ildə səhnə üzü gördü. Səhnə quruluşunu rejissor Mehdi Məmmədov verən bu tamaşa monumentallığı, təlqin etdiyi estetik gözəlliyi ilə 70-ci illərin ən maraqlı tamaşalarındandır».

İlham Rəhimli

«Cavid Azərbaycanda şəkil və lisanca ən irəli gedən şairlərdəndir. Şah əsəri «İblis» olan Cavidin yaradıcılığında əsas xətti nə millətçilik, nə də inqilab, nə də ictimai mövzulardır. Onun əsas xətti estetizmdir. Onun bütün yaradıcılıq qüvvəsi, bütün bədii görüşü:

Mənim tanrım gözəllikdir, sevgidir».

Cabbar Əfəndizadə

«Cavid teatrı Azərbaycan səhnə mədəniyyəti tarixinə parlaq səhifələr yazmış qüdrətli aktyor nəsli üçün yüksək sənətkarlıq məktəbi olmuşdur. Abbas Mirzə Şərifzadənin, Ülvi Rəcəbin, Mərziyyə Davudovanın, Rza Təhmasibin, Mirzağa Əliyevin, Kazım Ziyanın, Sidqi Ruhullanın və başqalarının sənət şöhrəti Cavid teatrı ilə xeyli dərəcədə bağlıdır».

Qulam Məmmədli

«Cavid yaradıcılığı böyük idealları və yüksək sənətkarlıq keyfiyyətləri ilə Azərbaycan ədəbiyyatında yeni bir hadisə, yeni bir mərhələ olmuşdur. Bu mənada Cavid, Azərbaycan ədəbiyyatının ən qüdrətli yazıçısı kimi göstərilə bilər».

Teymurçin Əfəndiyev

«Cavid səhnəmizə ilk dəfə şeriyyət gətirmişdir. Cavid şeri öz vaxtında səhnəmiz üçün yeni bir hadisə idi».

Məmməd Arif

«Cavidin bütün faciələrinin əsas qəhrəmanları həqiqət axtarıcısıdır, bu faciələrdən hər biri bu və ya digər dərəcədə həyatı dərk etməyə can atan narahat ağlın və biliyin faciəsidir».

Yaşar Qarayev

«Cavid incə ruhlu bir şair olmaqla bərabər, türk dilini əruz vəzni ilə qarışdıran və bir-birindən ayrılmaz bir hala salan sənətkardır».

Əlibəy Hüseynzadə

«Ədəbiyyatın ən böyük əhəmiyyəti onun insanlarda yüksək bir qayə və ideal doğurmasından ibarətdir. Şübhəsiz ki, Osmanlı şairlərindən Əbdülhəq Hamidin, Azərbaycanımızda Hüseyn Cavidin əsərlərinin bu xüsusda cəmiyyət üzərində böyük bir əsər və nüfuzu vardır. Bu kimi nəfis əsərlər cəmiyyəti sönük və adi həyatdan tamamilə uzaqlaşdıraraq yüksək bir ideala, ülvi bir həqiqətə sövq edir».

Abdulla Şaiq

«Ömrünün ikinci yuz ilinə qədəm qoymuş Cavid sənəti Azərbaycan dramaturgiyası və teatr aləmində qiymətli hadisədir və buna görə də o, ölməzdir, əbədidir!»

Tamilla Təhmasib

HÜSEYN CAVİD ƏDƏBİ İRSİNİN KİTABXANALARDA TƏBLİĞİ

Məlum olduğu kimi, ölkə Prezidenti Azərbaycan ədəbiyyatının filosof, şair - dramaturqu Hüseyn Cavidin 120 illik yubileyinin geniş miqyasda keçirilməsi barədə sərəncam imzalamışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 23 oktyabr, 2002- ci ildə imzaladığı sərəncamda deyilir: «2002-ci ilin oktyabr ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi böyük şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rəsizadənin) anadan olmasının 120 illiyi tamam olur. Hüseyn Cavid klassik milli ədəbiyyatının ənənələri ilə yeni dövrün bədii və fəlsəfi axtarışları arasında vəhdət yaradaraq XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynamış qüdrətli sənətkarlardandır. Dünya romantizm poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii - estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin tarixi qatlarından alır. Özünün üslub, yazı tərzi və forma yeniliyi baxımından onun dramaturgiyası teatr mədəniyyətimizin inkişafına güclü təsir göstərmiş, milli teatr tarixindi «Cavid Teatrı» kimi səciyyələndirilmişdir.

Ölkə Prezidentinin imzaladığı sərəncam Hüseyn Cavid fenomeninə, H. Cavid irsinə tükənməz məhəbbətin təzahürüdür. Əslində özümüz də hiss etmədən Hüseyn Cavid adı gündəlik ədəbi - mədəni həyatımıza daxil olub. Eyni zamanda ədibin bədii irsinin qiymətləndirilməsində ciddi əyintilərin, səhv və qeyri - elmi münasibətlərin olduğu da məlumdur. Cavid haqqında edilən haqsızlıqları, ədalətsizlikləri, bədii irsinin obyektiv təhlil edilməsi müəyyən tarixi dövrdən sonra ədəbiyyatşünaslıq elmində özünün bəraətini qazandı.

44660

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Heydər Əliyev hakimiyyəti dövründə Hüseyn Cavid taleyinə, irsinə qayğı və diqqət daha da artdı, onu unutmağa yaddan çıxartmağa qoymadı. Məhz buna görədir ki, ölkə Prezidenti Hüseyn Cavidin anadan olmasının 120 illiyinin geniş miqyasda qeyd edilməsi haqqında xüsusi sərəncam imzaladı. Respublika Prezidentinin sərəncamı və Mədəniyyət Nazirliyinin müvafiq əmrinə uyğun Hüseyn Cavidin 120 illiyi ilə əlaqədar onun bədii irsinin yeni tarixi şəraitdə, öyrənilməsi, geniş oxucu kütləsinə çatdırılması və Gənc nəslin Cavid yaradıcılığının dəyərlərindən bəhrələnməsi, onlarda milli ləyaqətin tərbiyə olunması, elmi dünyagörüşünün formalaşdırılması üçün bütün mədəni - maarif müəssisələri, o cümlədən kitabxanalar qarşısında da mühüm vəzifələr durur.

Bu əlamətdar ildönümü münasibətilə kitabxanalarda Cavidin ədəbi - bədii irsinin təbliği üçün rəngarəng forma və metodlardan istifadə etməklə geniş tədbirlər planı işlənib hazırlanmalı, onun yubileyi yüksək səviyyədə keçirilməlidir. Cavid poeziyası, drammaturgiyası ilə maraqlanan oxucu kontingentinin sorğularını və informasiya tələbatını ödəmək üçün kitabxanalarda ədibin əsərlərindən, həyat və yaradıcılığına həsr olunmuş ədəbiyyatlardan, eyni zamanda onun yubiley illəri ilə əlaqədar nəşr olunmuş materiallardan istifadə etməklə silsilə kütləvi tədbirlər keçirilməlidir.

Bununla yanaşı, kitabxanalar birinci növbədə, ədib haqqında çap olunmuş ədəbiyyatın düzgün komplektləşdirilməsinə, özlərinin kataloqlarında, biblioqrafik kartotekalarında yeni rubrikaların açılmasına və yubiley materiallarının orada vaxtında əks etdirilməsinə nail olmalıdırlar.

Respublikanın mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS) mərkəzi kitabxanaları və onun kitabxana filialları yubiley ilində Cavid bədii irsinin

oxuculara çatdırılması üçün əyani və şifahi təbliğatın: kitab sərgiləri, kitabxana plakatları, stend, albom, ədəbi-bədii əsərlərin müzakirəsi, söhbətlər və disputların aparlıması, oxucu konfranslarının, biblioqrafik icmalların keçirilməsini təmin etməlidir. Bunlardan əlavə, şifahi təbliğat formalarından da müvafiq qaydada istifadə olunmalıdır. Kitabxanalarda keçirilən kütləvi tədbirlərin mütəşəkkil, planlı, sistemli, romantik və emosional təşkili və keçirilməsi cansıxıcılığı, formalizmi aradan qaldırır, onların təsir gücünü artırır. Sözsüz ki, bu tədbirlərin əsas məqsədi repressiya dövründə ədibin keçirdiyi sərt acı taleyini, onun türk ruhu qaynaqlarından süzülüb gələn çoxcəhətli yaradıcılığını və ümumiyyətlə bədii irsinin ana xəttini oxuculara çatdırmaqdan ibarətdir. Belə tədbirlər sayəsində oxucular keçmişi sorğu-sual edir, cavidşünaslığın araşdırılıb saf-çürük edilməsində, Cavid irsinin fəlsəfi, nəzəri-estetik münasibətlərinin dərk edilməsində, onun bir şəxsiyyət kimi xalqın mədəniyyət tarixində tutduğu mövqeyinin öyrənilməsində düzgün istiqamətləndirilmiş olurlar. Məhz bu cür tədbirlərin geniş oxucu kütləsi üçün gərəkliyini və səmərəsini elə bunda görmək olur. Təbii ki, mədəni-maarif müəssisələrində və kitabxanlarda bu formada atılan hər yeni addım milli mədəniyyətimizin üfüqlərini genişləndirdiyi kimi, müasir oxucunu da qədim və zəngin bədii söz sənətimizə hörmət və məhəbbət ruhunda tərbiyə etməkdən ibarətdir. H.Cavidin ədəbi-bədii və fəlsəfi irsinin zənginliyi, onun ideya və romantik fikirləri həm öz dövrü, həm də indiki zaman, hətta gələcək üçün müasirliyi ilə diqqəti cəlb edir.

Kitabxanalarda keçirilən ən iri həcmli tədbirlərdən biri oxucu konfranslarıdır. Oxucu konfranslarının üstün cəhətlərindən biri odur ki, bu və ya başqa yazıçının yaradıcılığı və yaxud onların ayrı-ayrı əsərləri ilə yüzlərlə oxucunu tanış etmək imkanı yaradır. H. Cavidin zəngin ədəbi irsinin təbliği üçün keçirilən

oxucu konfranslarında müzakirə olunacaq əsərlərin nə dərəcədə əhəmiyyətli və təsirli olması, bu günün tələbləri ilə necə səslənməsi əsas meyar kimi götürülür. Oxucu konfransını keçirmək üçün kitabxanaçı (tədbirin hazırlanmasına məsul şəxs) kitabxana filialları ilə birlikdə proqram tərtib etməlidir. Həmin proqramda keçiriləcək tədbirin adı, giriş sözü və çıxış edəcək başqa şəxslərin adı qeyd olunmalıdır.

Oxucu konfranslarına hazırlıq dövründə kitabxanaçı yubilyar haqqında olan ədəbiyyatı seçməli və həmçinin dövrü mətbuatda dərc olunan materiallardan da istifadə etməlidir. Tədbirin keçirilməsində orta məktəbin ədəbiyyat müəllimlərinin, ixtisaslı mütəxəssislərin, klub və muzey işçilərinin, məktəbin yuxarı sinif şagirdlərinin imkanlarından maksimum istifadə etmək vacibdir. Onu da qeyd etmək lazımdır ki, belə tədbirlərin təşkilində məktəb şagirdlərinin iştirakına şərait yaratmaq çox vacibdir. Bütün bu cür tədbirlər kitabxanada oxucuların və kitab verilişinin çoxalmasına səbəb ola bilər. Uşaq və gənclər kitabxanaları tərəfindən şagirdlərin tədbirlərə cəlb edilməsində əsas amil onların asudə vaxtının düzgün təşkil edilməsinə, mütaliənin düzgün istiqamətləndirilməsinə, oxucu marağının öyrənilməsinə, həmçinin Cavidin çoxsahəli bədii irsindən faydalanmasına kömək edəcəkdir. Oxucu konfranslarını müxtəlif adlar altında keçirmək olar:

1. «Hüseyn Cavidin ideyalar aləmi».
2. «Hüseyn Cavidin həyat və yaradıcılıq salnaməsi».
3. «Hüseyn Cavid Şərq romantizminin banisi kimi».
4. «Hüseyn Cavid yaradıcılığında faciə motivləri».
5. «Hüseyn Cavid yaradıcılığının milli dramaturgiyamızda və teatrımızın tarixində rolu».

H. Cavidin geniş yaradıcılıq irsinin təbliğində kitabxanalarda ədəbi-bədii gecələrin keçirilməsi oqlduqca vacibdir.

Format etibarı ilə ədəbi-bədii gecələr oxucu konfranslarına çox yaxın tədbirlərdəndir. Bu cür gecələrin keçirilməsinin də özünəməxsus xarakterik cəhətləri vardır. Tədbirin keçirilməsinə 1-1,5 ay vaxt tələb olunur. Ədəbi-bədii gecələrin köməyi vasitəsilə oxuculara H. Cavid yaradıcılığı haqqında geniş məlumat verilir. Bu tədbiri müxtəlif adlar altında keçirmək olar. Məs: «H. Cavidin söz dünyası», «Böyük humanist», «H.Cavid dramaturgiyasında insan-şəxsiyyət problemləri», «H. Cavid poeziyası» və s.

Adından göründüyü kimi, tədbir iki hissədən ibarət olur: ədəbi-bədii. Birinci hissədə müzakirə olunan əsər və ya mövzu haqqında məruzə və çıxışlar olur. İkinci hissədə isə tədbiri keçirən kitabxananın imkanlarından asılı olaraq bədii proqram təşkil edilir. Ədəbi və bədii hissənin proqramı ayrı-ayrılıqda tutulur və hər iki hissə eyni mövzuya həsr edilir. İkinci hissədə onun yazdığı şerlərdən parçalar, pyesləri əsasında düzəldilmiş kiçik səhnələr və lirikasına bəstələnmiş mahnılar formasında ssenari tərtib edilməlidir. Tədbirin mövzusuna uyğun materiallar keyfiyyətlə seçilməli, bədii hissənin ssenarisi ilə uyğunlaşdırılmalıdır. Belə tədbirlər oxucu kütləsini özünə daha çox cəlb edir, onların bədii-estetik zövqünün formalaşmasına real şərait yaradır, həmçinin də oxucuların müəyyən qismi bilavasitə tədbirin iştirakçısına çevrilir. Tədbirin dinamikliyini və ahəngdarlığını artırmaq üçün klub, teatr dərnəklərinin əməkdaşlarını, orta məktəb müəllimlərini və yuxarı sinif şagirdlərini də işə cəlb etmək lazımdır. Çünki kitabxanalar bu tədbiri ayrılıqda öz qüvvəsi ilə təşkil etmək və keçirmək imkanına malik deyildir. İstər oxucu konfransları və istərsə də ədəbi-bədii gecələrin təşkili bir qayda olaraq fotostendlər və kitabxana plakatları ilə tamamlanmalıdır. Məs: H. Cavid yaradıcılığının məhək daşı sayılan dramaturgiyaya həsr olunmuş fotostendi «H. Cavid -120» başlığı altında düzəltmək olar. Fotostendi

nəzərdən keçirən hər bir oxucu onun irsinin ölməz inciləri olan müxtəlif dram əsərlərinin tamaşalarından nadir fotolarla tanış olmaq imkanını qazanır. Orada nümayiş edilən hər bir fotoşəkil oxucunu sənətkarın zəngin yaradıcılığı ilə tanış edir. Cavid dramaturgiyasında yetişmiş, püxtələşmiş aktyor nəsli haqqında oxucuları məlumatlandırır. Foto sərgidə görkəmli rejissorların, aktyorların və başqa sənət xadimlərinin filosof-dramaturq H.Cavid haqqında dediyi qiymətli fikirlərdən sitatlar da öz əksini tapmalıdır. Bir sözlə, böyük sənətkarın yaradıcılıq irsinin müəyyən məqamlarını bədii tərtibat: fotosərgilər, plakatlar, foto portretlər və s. vasitələri ilə geniş oxucu kütlələrinə göstərilməsi kitabxanalarda keçirilən hər bir tədbirin bədii estetik dəyərini və onun təsir gücünü artırır. Çünki keçirilən tədbirlərin səviyyəsi haqqında ilk təəsüratı onlar yaradır.

Yubiley dövründə kitabxanalarda kitab müzakirələrinin, disputların, ucadan oxular keçirilməsinin əhəmiyyəti olduqca böyükdür. Keçirilən tədbirlər içərisində kitab müzakirələri xüsusi yer tutur. Çünki kitablar oxucuların baxışlarının, hisslərinin tərbiyə edilməsində qüdrətli amildir. Bədii, fəlsəfi və dram əsərlərini mütaliə edən hər bir oxucu Cavid yaradıcılığının mənəviyyatına səyahət edir, qələmə aldığı əsərlərdə baş verən mürəkkəb hadisələri fikir süzgəcindən keçirir, sənətkarın ümumbəşəri mövzularda qələmə aldığı xarakterlər və tarixi şəxslərin surətləri ilə tanış olurlar.

Kitab müzakirələrini dramaturq-şairin müxtəlif əsərlərinə görə keçirmək lazımdır. Nümunə üçün onun bədii-fəlsəfi əsərlərindən biri, böyük xarakterlərin qarşılaşdığı «Səyavuş» faciəsini götürək. Kitabxanaçı əsərin müzakirəsinə ciddi hazırlıq görməli və əsərlə əlaqədar suallar tərtib etməlidir. Müzakirə zamanı qoyulan suallar «Səyavuş» əsərinin mahiyyətinin aydınlaşdırılmasına xidmət etməlidir. Məs:

1. H.Cavid nə üçün qədim Səyavuş dastanına müraciət etmişdir?
2. Əsər hansı məqsədlə yazılmışdır?
3. Əsərdə hadisələrin baş verdiyi tarixi şərait.
4. Səyavuşun faciəsini nədə görürsünüz ?
5. Faciənin ilk səhnə quruluşunu hansı rejissor vermişdir və Səyavuş rolunda ilk dəfə kim çıxış etmişdir?

Müzakirə zamanı daha maraqlı və oxucuları daha çox düşündürən məsələlər də ortaya çıxa bilər, onun bu gün üçün əhəmiyyəti oxuculara çatdırılır.

Yubiley ərəfəsində H.Cavidin həyatına, dövrünə, repressiya illərinə, yaradıcılığına həsr olunmuş söhbətlərin və məruzələrin keçirilməsi lazımdır. H.Cavidin həyat və yaradıcılığı, «H.Cavid yaradıcılığının gənc nəslin tərbiyəsində rolu», «H.Cavid günahsız repressiya qurbanlarından biri kimi», «H.Cavid əsərlərinin səhnə tarixi haqqında», «H.Cavid fəlsəfəsi və romantizmi», «H.Cavid dramaturgiyasında Ana obrazı» və s. mövzularda məruzə və müzakirələrin təşkili olduqca vacibdir. Həmin müzakirə və məruzələrin daha məzmunlu keçirilməsi üçün dil-ədəbiyyat müəllimlərinin, Cavid yaradıcılığı ilə məşğul olan tədqiqatçıların qüvvəsindən də istifadə etmək lazımdır.

Kitabxanalarda keçirilən kütləvi tədbirlərdən biri də biblioqrafik icmallardır. Belə icmallar əsasən ədibin kitabları, ayrı-ayrı əsərləri haqqında oxuculara məlumat vermək üçün təşkil edilir. Məlum olduğu kimi, H.Cavidin əsərlərinin 4 cildi (1969-1985-ci illərdə) və ayrı-ayrı əsərləri müxtəlif illərdə nəşr olunmuşdur. Bu nöqteyi-nəzərdən biblioqrafik icmalların da keçirilməsi məqsədəuyğun sayılır.

Biblioqrafik icmalı keçirmək üçün yazıçılarımızın, ədəbiyyatşünaslarımızın, tənqidçi - alimlərin H.Cavid haqqında dərc olunmuş kitablarını seçmək, onun həyat və ədəbi irsinə aid materiallar dərc olunmuş dövrü

mətbuatı araşdırmaq lazımdır. Təbii məsələdir ki, yubileyə hazırlıq dövründə H.Cavid şəxsiyyətinə, onun həyatının qaranlıq qalan məqamlarının açılmasına, ədəbi irsinin düzgün təhlilinə ünvanlanmış ədəbiyyata maraq daha da artır. Belə əsərlər əksər hallarda qəzet və jurnal səhifələrində dərc olunduğundan, oxucular onları ardıcıl əldə edib oxuya bilmirlər. Odur ki, belə əsərlərin bibilioqrafik icmalını keçirmək üçün «Hüseyn Cavid» adlı xüsusi kartoteka tərtib edilməlidir.

Kitab təbliğinin ən canlı əyani təbliğat formalarından biri də kitab sərgiləridir. Sərgilərin təşkilində ümumi məqsəd bir olsa da, mövzusuna görə müxtəlif olmalıdır. Kitabxanaçılara tövsiyə edirik ki, kitab sərgilərində birinci növbədə mövzuya müvafiq olaraq rəhbər ədəbiyyatı yerləşdirsinlər və yeri gəldikcə, illüstrasiya materiallarından, sitatlardan da istifadə etsinlər.

Sərgi vasitəsilə çap əsərləri oxuculara əyani olaraq təqdim edilir.

H.Cavidin 120 illiyi ilə əlaqədar kitabxanalarda sərgilərin tərtibi metodikasına diqqətlə yanaşmaq tələb olunur. Sərgilərin tərtibatına soyuq yanaşmaq, kitabları necə gəldi düzmək olmaz. Sərgi zövqlə tərtib edilməli, məzmununa, bədii estetik dəyərinə xüsusi diqqət yetirilməli, çap məhsulları xüsusi sistemlə düzülməlidir. Belə kitab sərgiləri daha cəlbedici olur və seçilmiş materiallar mövzunun bütün tələbləri ilə mütənasiblik təşkil edir. Lakin kitabxanalar sərgini təşkil edərkən öz daxili imkanlarını da nəzərə almalıdır. Beləliklə, sərgilər oxuguları göstərilən tədbirlərə çağırır və onlarda xüsusi maraq oyadır. Aşağıdakı H.Cavid yaradıcılığına həsr olunmuş bir kitab sərgisinin nümunəsini veririk.

HÜSEYN CAVİD-120

Şəkil	3	4	5
6	7	8	9
10	11	12	13
14	15	16	17

1. Başlıq: «Hüseyn Cavid- 120».
2. Hüseyn Cavidin şəkli.
3. H.Cavidin 120-illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı.
4. H.Cavidin öz yazdığından bir sitat. Sitat: «O paslı zəncirlər qırılmadıqca Dar gələcək insanlara bu dünya».
4. H.Cavid haqqında deyilmiş fikirlərdən bir sitat.

6-7. H.Cavidin seçilmiş əsərləri.

8-9. H.Cavidin ayrı-ayrı əsərləri.

10-11. H.Cavid haqqında ədəbiyyat.

12-13. H.Cavid haqqında dövrü mətbuatda dərc olunmuş materiallardan bəzi nümunələr.

14. Bu kitabları oxuyun!.

Qeyd:15-17- ci xanadakı cibliklərə əlavə ədəbiyyat siyahısı qoyulur.

Deyilənlərə yekun vuraraq, belə bir nəticəyə gəlirik ki, kitabxanalar dahi sənətkarın 120 illik yubileyini geniş miqyasda keçirməsini təmin etmək üçün əlaqədar təşkilatların köməyindən maksimum istifadə

edəcək, nəzərdə tutulmuş tədbirlərin reallaşdırılmasında öz bilik və bacarıqlarını əsirgəməyəcəkdir. Sözsüz ki, bütün bunlar respublika kitabxanaçılarını Cavidin ölməz sənətinə, onun işıqlı yaradıcılığına, dərin ədəbi-bədii, fəlsəfi irsinə və ümumiyyətlə, cavidşünaslığa olan sonsuz məhəbbətindən irəli gəlir. Cavid yaradıcılığının fəlsəfi-estetik keyfiyyətləri, idraki əhəmiyyəti, ictimai məzmunu, yüksək bədii səviyyəsi daim düşündürən məsələlərdən olduğuna görə kitabxanaçılar onun ədəbi irsinin təhlili prosesində buraxılan səhv mülahizələrin aydınlaşdırılmasında, əsərlərin elmi-nəzəri tələblər səviyyəsində yenidən mənalandırılmasında Cavidsevər oxuculara, tədqiqatçılara, tənqidçilərə, ədəbiyyatşünaslara lazımi köməklik göstərəcəkdir.

Tədbirlərin keçirilməsinə kömək məqsədilə metodiki vəsaitə mövzu ilə əlaqədar tövsiyə ədəbiyyat siyahısını da əlavə edirik.

Tövsiyə olunan ədəbiyyat

1. Hüseyn Cavidin 120 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı //Azərbaycan.- 2002.- 25 okt.
2. Hüseyn Cavidin ev muzeyinin açılış mərasimində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqi //Azərnbaycan.- 2002.- 25 okt.

Əsərləri

1. Cavid H. Dram əsərləri.- B.: Azərnəşr, 1975.- 348 s.
2. Cavid H. Əsərləri 4 cilddə /Hüseyn Cavid; Tərt. ed. T.Cavid; Red-ru, izahların və qeydlərin müəllifi Ə.Cəfər.- B.: Yazıçı, 1982-1985.
   C. 1-312 s.
   C. 2-392 s.
   C. 3-377 s.
   C. 4-320s.
3. Cavid H. Seçilmiş əsərləri 3 cilddə /Tərt. ed. T.Cavid; Red-ru E.Eyvazov.- 1968-1971
   C.1. Şerlər və dram əsərləri.- 1968.- 371s.
   C.2. Dram əsərləri.- 250 s.
   C.3. Dram əsərləri.- 351s.
4. Cavid H. Pyeslər.- B.: Azərnəşr, 1963.- 312s.

Haqqında olan ədəbiyyat

1. Cavid M. Cavidi xatırdlarkən. -B.: Yazıçı, 1978.- 174s.
2. Cəfər M. Hüseyn Cavid. -V.: Elm.- 1960.- 207s.
3. Əfəndiyev Q. Hüseyn Cavidin ideyalar aləmi.- B.: Yazıçı, 1985.- 206 s.

4. Hüseynov R. Vaxtdan uca / Ön söz Anarındır.- B.: İşıq, 1978.- 316 s.
5. İbadoğlu Ə. Hüseyn Cavidin «İblis» fəlsəfəsi.- B.: 1966.- 143 s.
6. İsmayılov Ə. Dünya romantizm ənənələri və Hüseyn Cavid.- B.: Yazıçı, 1983.- 224 s.
7. Məmmədli Q. Cavid ömrü boyu. Həyat və yaradıcılıq salnaməsi.- B.: Yazıçı, 1982.- 297 s.
8. Məmmədov M. Acı fəryadlar, şirin arzular.- B.: Gənclik, 1983.- 192 s.
9. Təhmasib Q. Hüseyn Cavid və teatr.- B.: İşıq, 1988. -130 s.
10. Yağmur Z. İnsan axtarışında. - B.: Günəş, 1998.- 128 s.
11. Cabbaroğlu M. Həqiqət Şairi (H.Cavid haqqında)// Ədəbiyyat qəzeti.- 1999.- 6 iyun.– 4 s.
12. Əhmədoğlu 1. Cavid və Türkiyə ədəbi mühiti //Xalq qəzeti.- 1998.- 25 dek.
13. Ələkbərli Ə. Cavid zirvəsinə qayıdış: (Naxçıvanda Hüseyn Cavid məqbərəsinin açılışı ilə əlaqədar) //Xalq qəzeti.- 1996.- 1 noy.
14. Məmmədli M. Hüseyn Cavid və yaxud ləyaqətlə ucaldılmış abidə //Azərbaycan.- 2001.- №6.- S.167-170.

2003
1272